# Novruz bayramının tarixi və adət-ənənələri

Bütün bayramlar üçün ümumi olan bir xüsusiyyət var: insanlarda həyat həvəsi, şənlik, sevinc hissləri yaratmaq. Belə günlərdə qədim insanlar gündəlik məişət



qayğılarından azad olaraq, qısa müddətə olsa da, kədər və iztirabı özlərindən uzaqlaşdırır, həyatın mənalı davamı üçün stimullar tapırdılar. Bu baxımdan sonradan yaranmış və müəyyən mənada siyasi məsələlərlə bağlı olan dövlət və dini bayramlardan fərqli olaraq, bəşəriyyətin körpəliyindən - mifoloji dövrdən günlərimizədək gəlib çatmış bayramlar daha cazibədar və səmimidir.

Mifoloji bayramlar, bir qayda olaraq, təbiətlə, onun fəsilləri ilə bağlı olur və onlar da hər bir adamın həyatında çox mühüm rol oynayan hadisələrdir. Bununla yanaşı, belə bayramlar kollektiv yaddaşda reallaşaraq, xalqlara öz qədim ənənələrini qoruyub saxlamağa, tarixi zamanın dayanmaz axınını müəyyən qədər ləngidərək, əcdadların dövrünü, həyatını xatırlamağa imkan verir.

Minilliklər içərisindən keçib gələn qədim Novruz bayramı tarix boyu çoxlu qadağalara və təqiblərə məruz qalsa da, öz təravətini və gözəlliyini indi də saxlamaqdadır. Ancaq tarix də öz işini görmüşdür: bayramın əlamətləri əsasən saxlanılsa da, onun ilkin məzmunu, mənası unudulmuş və ya dəyişikliklərə məruz qalmışdır. Ona görə də bu yazıda biz ən qədim mənbələr əsasında Novruzun və onun əsas mərasimlərinin ilkin mənalarını oxuculara çatdırmağa çalışacağıq. Əlbəttə, əvvəllər də tədqiqatçılar arasında belə cəhdlər çox olmuşdur. Ancaq onların əksəriyyəti əsasən Novruzun bugünkü mərasimlərindən çıxış edərək, onlara öz təxəyyülləri əsasında mənalar verməyə çalışmış və yaxud onu digər xalqlarda odla, baharla bağlı olan çoxsaylı bayramlarla qarışdırmışlar. Ona görə də qədim hadisələrin mənşəyini və mahiyyətini müəyyənləşdirmək üçün gümana yox, ilkin mənbələrə müraciət etmək lazımdır.

Aparılan tədqiqatlar və araşdırmalar göstərir ki, Novruz və digər zərdüştilik bayramları haqqında ilkin təsəvvürlər hələ e.ə.I minillikdə "Avesta"da Vorukaşa adlanan Baykal gölünün şərqindəki ərazilərdən başlayaraq, Qara dənizədək uzanan çöllərdə məskunlaşmış skif tayfaları arasında geniş yayılmışdır. Zərdüşt özü də Baykalın şimal-şərqində yerləşən indiki Bərquzin ("Avesta"da - Berezayti) dağının yaxınlığında doğulmuşdur. Skif inanclarında olan bir sıra mənfi adət-ənənələri (uşaqların tanrılara qurban verilməsi və s.) aradan qaldırmaq üçün bu sistemdə islahatlar aparmağa çalışan Zərdüşt həmyerliləri tərəfindən əcdadların etiqadlarına qarşı çıxan bir



adam hesab edilərək vətənindən qovuldu və on il sərgərdan gəzdikdən sonra Orta Asiyaya gəldi. O zaman, yəni e.ə.VI əsrdə Orta Asiyanın həmin hissəsi Həxamənşilər dövlətinin tərkibinə qatılmışdı və buranın canişini Viştaspa idi. Viştaspa Zərdüştün yaratdığı dini təlimi qəbul edərək hakim olduğu ərazidə onun təbliğ edilməsinə imkan yaratdı. Onun oğlu I Dara (e.ə. 522-486) hakimiyyətə keçdikdən sonra isə atasının qəbul etdiyi dini bütün İranda yaymağa çalışdı. Ancaq Zərdüştün təlimi İranda yalnız Orta Asiyadan çıxmış parfiyalıların hakimiyyəti dövründə (e.ə. 250 - b.e. 226-cı illəri) qəti şəkildə möhkəmləndi.

Məlumdur ki, Zərdüşt əkinçilik mədəniyyətinin yüksəldilməsinə, insanların güzəranının yaxşılaşmasına çalışmışdır. Bu amillərin, Novruz bayramının keçirilməsinə əsaslı təsir göstərməsi şəksizdir. Novruz bayramı zərdüştliyin geniş yayıldığı Azərbaycan, İran, Orta Asiya, Əfqanıstan, Pakistan və bir sıra başqa ölkələrdə çox-çox qədimlərdən keçirilmişdir. Dahi Nizami Gəncəvi "İsgəndərnamə"sində zərdüştlərin Novruz bayramını necə keçirmələrini zərgər dəqiqliyilə, qəlbə nüfuzedici bir tərzdə təsvir və tərənnüm edir.

Novruz bayramının mənşəyi, onunla bağlı əsatirlər, miflər qədimdir. Tədqiqatçılar bu bayramın məhz Yaxın Şərqin əkinçiliklə məşğul olan xalqları arasında meydana gəldiyini söyləyiblər. Onu ayrı-ayrı tarixi və əfsanəvi şəxsiyyətlərin adı ilə bağlamağa çalışıblar. Əbu Reyhan əl-Biruni yaradıcılığında Novruz bayramı haqqında müxtəlif rəvayətlərə, onun yaranması səbəblərinə, xalq arasında yayılmış adət-ənənələrə toxunub. O, Novruz bayramının təbiətin oyanması, əkinçilik təsərrüfatının başlanması ilə bağlı əsl dünyəvi bayram olduğunu yazıb. Nizamül Mülk "Siyasətnamə" əsərində Novruz bayramından yazın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq bayramı kimi bəhs edib. Novruzun gəlişi klassik Şərq, o cümlədən Azərbaycan poeziyasında geniş yayılmış "Bahariyyə" adlı lirik şeirlərdə də təsvir və tərənnüm olunur. Ömər Xəyyam "Novruznamə" əsərində bu bayramın tarixindən danışarkən qeyd edib: "Novruzun yaranmasının birinci səbəbi odur ki, həmin gündə Günəş dövrə vurub 365 gün 6 saatdan sonra öz yerinə qayıdır. Cəmşid bu günü müəyyənləşdirdiyinə görə onu yeni gün - Novruz adlan-



dırıb və bayram edib".

Novruz inanclarının əsasında insana, təbiətə həyat verən dörd ünsürün - Suyun, Odun, Yelin (havanın), Torpağın isinməsi, «dirilməsi» durur. Odur ki, Novruz şənlikləri təzə ilin başlanmasına, yəni martın 21-nə dörd həftə qalmış keçirilməyə başlayır. Bu aya Boz ay deyirlər. Həmin ayın hər çərşənbəsi təbiətin bir ünsürü ilə əlaqələndirilmiş və beləliklə, insanların təsəvvüründə ilaxır çərşənbələr yaranmışdır. Əski inamlara görə bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri «dirilmişdir». İlin Novruzdan əvvəlki dörd axır çərşənbəsi müqəddəs sayılır. Bunlar Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi adlanır. Birinci su çərşənbəsi adlandırılırdı. Yəni, bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Qızlar bulaqlardan sərin, şirin su gətirərdilər, evin ətrafına çiləyərdilər, üzlərini yuyardılar.

İkincisi od çərşənbəsi adlanır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Od çərşənbəsində tonqallar qalanar, hər ailə üzvünün adına bir dənə şam yandırılar, xonçalar düzəldilər.

Üçüncüsü yel çərşənbəsidir. Bəzi bölgələrimizdə çox əziz tutulur. Yəni yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yelləddir. Axırıncısı torpaq çərşənbəsidir. Torpağı ana təbiət - Allahımız su ilə islatdı, günəşlə isitdi, onu yaratmağa hazırladı. Ona görə də, ilk yaz əkininə xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar.

Kos-kosa - Azərbaycanda əsasən Novruz bayramında geniş yayılmış oyun növüdür. Novruz bayramında Kosa və Keçəl personajları seçilir. Onlar məzəli oyunlar göstərir, lətifələr danışır və Kosa-kosa oyunu oynayırlar. Oyuna qatılanlar qurd, tülkü, çaqqal qılıqlarına girərlər. Kosabaşı üzərinə götürdüyü kürkü tərs geyər. Belinə və boynuna zınqırov asar. Kosa kimin evinə girsə o evə bərəkət girər və il boyunca əskik olmaz. Bəzi bölgələrdə uşaqlar bəzilərində isə qadınlar tərəfindən oynanır. Kosanın son günündə Səməni (Sem/-Som) adı verilən bir mərasim keçirilir. Som eyni zamanda Yula deyilən ruhun qoruyucusudur. Səməni bir növ halva olub, bişirildikten sonra Novruz gecəsi bir qismi suya buraxılır..

Bayramda rəngbərəng yumurtalar boyanır, məcməyi və sinilərdə xonça bəzənir. Azərbaycanda adətə görə, Novruzda göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Buna görə də Novruzda səməni və şamlar geniş istifadə olunan atributlardandır. Bayramda hər kəsin evində Novruz şirniyyatları: şəkərbura, paxlava, qoğal və s. bişirilir. Eyni zamanda bayramda bəzədilən xonça da sanki əlimizlə yığdığımız yer kürəsin balaca bir maketidir. Bu xonçada səməni- torpaq, şəkərbura- ay, qoğal- günəş, paxlava- insan, şam - od, yumurta- canlı aləm mənasını daşıyır.

Xalqımızın ən qədim və əziz bayramı Novruz mart ayının 20-si yurdumuza qədəm qoyur. Nə gizlədək, hər dəfə bu bayram öz gəlişi ilə bizlərin evində tamam başqa bir ab-hava yaradır. Digər bayramlar da bizlərə əzizdir. Ancaq etiraf edək ki, dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız üçün Novruz bayramı daha doğma və qiymətlidir. Bu, Azərbaycan xalqının, azərbaycanlıların qəlbinin bayramıdır desək, bizcə daha düzgün olar.

İnanırıq ki, Novruz bayramı ərəfəsində icra edilən və yaşadılan dəyərlər xalqımızın birliyinə, bütövlüyünə, münasibətlər sisteminin qorunmasına olduqca böyük fayda verəcək. Məhz buna görə də bu adətlərin qorunması, yaşadılması bu günümüz və gələcəyimiz üçün vacibdir. Novruz bayramınız mübarək!

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**